# Azərbaycanda milli tolerantlıq, dinlərarası və millətlərarası münasibətlər ən yüksək səviyyədədir

**"Azərbaycanın qədim dinlərarası əlaqələri, ənənələri var. Bu istiqamətdə bütün dövrlərdə ictimai-siyasi quruluşdan asılı olmayaraq, Azərbaycan özünü nümunəvi ölkə kimi göstərib. Əsrlər boyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşayıblar. Azərbaycan çoxkonfessiyalı, çoxmillətli ölkədir. Bu, bizim böyük sərvətimizdir".**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Bu gün Azərbaycanda mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti ölkəmizi çoxmillətli, çoxkonfessiyalı diyar, dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanına çevirmişdir. Azərbaycan dövləti multikultural ənənələr əsasında inkişaf edən zəngin milli-mədəni dəyərlərə malik bir ölkədir. Multikulturalizm Azərbaycan xalqının həyat tərzi olaraq uzun illər ölkənin inkişafının stimullaşdırıcı siyasətidir. Xüsusilə qeyd etmək lazımdır ki, müstəqilliyin bərpasından sonra multikulturalizmin inkişafı üçün xüsusi dövlət dəstəyi gücləndirilib. Bu güclü dəstəyin yekun nəticəsidir ki, bu gün Azərbaycanda müxtəlif xalqların nümayəndələri qarşılıqlı dostluq və əməkdaşlıq şəraitində yaşayır, ölkənin inkişafında rol alırlar. Dövlət siyasəti və həyat tərzi olaraq ölkəmizdə multikultiralizmin təməli ümummilli lider tərəfindən qoyulmuşdur. Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycanı vətəndaş müharibəsindən qurtarması ilə yanaşı, ölkəmizdə mövcud olan bütün milli azlıqları vahid azərbaycançılıq ideologiyası ətrafında birləşdirməsi bunun əsas göstəricisidir. Təbii ki, bu uğurlu multikultural xarici və daxili siyasətin nəticəsidir ki, həmin vaxtlardan etibarən bu günə qədər Azərbaycanda irqindən, dinindən, dilindən və milliyyətindən asılı olmayaraq bütün xalqlar rifah və firavanlıq içərisində yaşayır.

Azərbaycanda multikulturalizm siyasətinin əsasının qoyulması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin tarixi irsinin qorunub saxlanılması, xalqımızın xarakterik keyfiyyəti olan tolerantlığın daha da inkişaf etdirilməsi üçün ümummilli lider geniş hüquqi bazanın yaradılmasını daim diqqətdə saxlayıb. Məhz bunun nəticəsidir ki, vətəndaşlarımızın vicdan azadlığı hüququ birbaşa Konstitusiyamızda, daha geniş formada isə "Dini etiqad azadlığı haqqında" Qanunda öz əksini tapıb. Konstitusiyamızın 48-ci maddəsində qeyd olunur ki, hər bir vətəndaş vicdan azadlığını, dinə münasibətini müstəqil müəyyənləşdirmək, dini əqidəsini sərbəst ifadə etmək və yaymaq, dini mərasimlərini sərbəst yerinə yetirmək hüququna malikdir. Müasir Azərbaycanda təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan multikulturalizmin inkişafına Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 15 may 2014-cü il tarixli fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması və bu siyasətin davamı kimi 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi mühüm töhfə olmuşdur. Mübaliğəsiz demək olar ki, müstəqil Azərbaycan bir çox millətlərin və dini konfessiyaların dinc yanaşı yaşamasının unikal nümunəsidir. Çoxmillətli və çoxkonfessiyalı dövlət kimi Azərbaycan Respublikası bu gün dünya birliyinə hərtərəfli inteqrasiya siyasəti həyata keçirir. Ölkəmizdə mövcud ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dini tolerantlıq milli siyasətin məntiqi nəticəsidir. Uzun illərdir ki, Azərbaycan ayrı-ayrı dinlərə, irqlərə və dillərə məxsus insanların azad, sərbəst və heç bir manеə ilə rastlaşmadan yaşadığı bir dövlət kimi tanınır.

Tarixin bütün dönəmlərində olduğu kimi, bu gün də dövlətimizdə fərqli dillərə, dinlərə və irqlərə mənsub olan insanlar ortaq məxrəcə gələ bilirlər. Çünki hələ qədim zamanlardan məmləkətimiz çoxmillətli, çoxdinli bir ölkə olaraq özünü təsdiqləyib. Burada tarixi ənənəyə söykənən və uzun əsrlik tolerantlıq mühiti formalaşıb. Yüzilliklər bir-birini əvəz etsə də Azərbaycan xalqı öz humanist mövqeyində qalıb, nəsillər babalardan əmanət qalan ənənəni davam etdiriblər. Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi özünü azad və firavan hiss edir. Azərbaycanlılar mehriban, qonaqpərvər, sülhsevər və humanist olduğu üçün respublikamızda yaşayan digər xalqların nümayəndələri özlərini hərtərəfli ifadə edə biliblər. Azsaylı xalqların hüquqları hər zaman qorunub və onlara ana dilini, mədəniyyətini, dinini yaşatmaq üçün şərait yaradılıb. Bunun nəticəsidir ki, Azərbaycan ədəbiyyatının, mədəniyyətinin və ictimai fikrinin formalaşmasında, eləcə də torpaqlarımızın ərazi bütövlüyünün qorunmasında qeyri-azərbaycanlılar da örnək ola biləcək vətənpərvərlik nümayiş etdirə biliblər. Başqa xalqların, dinlərin nümayəndələri Azərbaycanı doğma Vətəni saydıqları, burada özlərini azad və sərbəst hiss etdiklərinə görə onlar Azərbaycanın müdafiəsinə qalxıblar. Hətta elan olunmamış Qarabağ müharibəsində, Azərbaycanın ərazi bütövlüyü və Konstitusiya quruluşu uğrunda döyüşən, şəhid, müharibə veteranı və əlili olan qeyri-azərbaycanlılar kifayət qədərdir. Qanunlarımızda da dinlərə hörmət və dini etiqad azadlığı öz əksini tapıb. Məsələn, hələ 1992-ci ildə "Dini etiqad azadlığı haqqında" qanun qəbul edilib. Lakin bu qanunda bir sıra boşluqlar olduğundan təkmilləşdirilməsinə ehtiyac duyulub. Ümummilli liderimiz və ulu öndərimiz Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra sözügedən qanuna müəyyən əlavə və dəyişikliklər edilib. Hətta Heydər Əliyevin 21 iyun 2001-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinin həyata keçirilməsi üçün müvafiq şərait formalaşdırılması və dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktının tələblərinə riayət olunması məqsədilə yaradılıb. Sadaladıqlarımız bir daha sübut edir ki, kifayət qədər demokratik, kifayət qədər başqa xalqlara, başqa dinlərə inanc bəsləyənlərə sayğı ilə yanaşan Azərbaycan artıq bütün dünyada nümunəvi dövlət kimi qəbul olunur.

Bu gün də Azərbaycan çoxmillətli, çoxdinli bir məmləkət olaraq bu müxtəlifliyi qoruyur. Çünki ölkə ərazisində etnik və dini icmalar arasında möhkəm dözümlülük, tolerantlıq əlaqələri davam etdirilir, milli, irqi və dini ayrı-seçkiliyə yol verilmir. Ölkəmizdə bütün xalqların, millətlərin və azsaylı toplumların nümayəndələri vahid və mehriban bir ailə kimi yaşayır, müxtəlif dinlərə mənsub insanlar sülh və əmin-amanlıq şəraitində dinc fəaliyyət göstərirlər. Azərbaycan hər zaman fərqli dinlərin, müxtəlif millətlərin qardaşlıq şəraitində yaşadığı ölkə olub. Bu gün Azərbaycanda dinlərarası və millətlərarası münasibətlər ən yüksək səviyyədədir.

Xalqımız həmişə bölgədə dostluğun, qardaşlığın möhkəmləndirilməsinə, insanlar arasında milli-dini mənsubiyyətindən asılı olmayaraq sülh və əmin-amanlıq şəraitinin yaradılmasına misilsiz tarixi töhfələr verib. Başqa dinlərə münasibətdə dözümlülük, onlarla yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq bizim milli əxlaqi dəyərlərimizin əsas xüsusiyyətlərindəndir. Bu baxımdan tarixən ölkəmizdə İslam dini ilə yanaşı, Xristianlıq, İudaizm və başqa dinlərə mənsub insanlar da məskunlaşıb, sülh və əmin-amanlıq şəraitində yaşayıb və indi də bu ənənə uğurla davam etdirilir. Azərbaycanın çoxdinli, çoxmillətli bir dövlət olmaqla bütün dünya üçün öz dəyərini göstərməyindən narahat olan və təxribatlara yol vermək istəyən bütün qüvvələrin səylərinə və cəhdlərinə baxmayaraq, ölkə Prezidentinin məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində respublikamızda tolerantlıq mühiti daha şəffaf və sağlam şəkildə formalaşacaq və dünyanın digər dövlətləri Azərbaycanın nümunəvi tolerantlıq mövqeyindən örnək götürəcəklər.

YAP İdarə Heyətinin üzvü Bahar Muradova mətbuata açıqlamasında bildirib ki, "Respublikamızda dini dözümlülüyün, dini müxtəlifliyin, milli və dini tolerantlığın, multikulturalizmin, milli-mənəvi dəyərlərin inkişafında və təbliğ edilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun, o cümlədən Fondun Prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın əvəzolunmaz xidmətləri vardır. Mehriban xanım Əliyeva Azərbaycan reallıqlarını, ənənələrini, multikulturalizmi, tolerantlıq mədəniyyətini hər zaman daxildə və ölkə xaricində beynəlxalq konfranslarda, tədbirlərdə dünya ictimaiyyətinin diqqətinə çatdırır, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək verir və milli mədəniyyətimizin təbliğində böyük işlər görür".

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı müsahibələrinin birində qeyd edib ki, "danılmaz faktdır ki, mədəniyyətlərarası əlaqələr prosesində özünəməxsus mövqeyi ilə seçilən Azərbaycanda tarix boyu müxtəlif mədəniyyətlərin, dinlərin, millətlərin, etnik qrupların nümayəndələri qarşılıqlı hörmət, birgəyaşayış şəraitində bir ailə kimi yaşayıb və bu ənənə günümüzdə də yüksək şəkildə davam edir. Çoxmillətli, çoxkonfessiyalı ölkəmizdə bu gün dini etiqad azadlığı tam şəkildə təmin edilir və bütün dinlərin, xalqların, etnik qrupların nümayəndələri eyni hüquqlara malikdirlər. Xalqımızın gen yaddaşından süzülüb gələn dözümlülük, multikultural ənənə bizim üçün normal yaşayış, həyat tərzidir desək, əsla yanılmış olmarıq. Çünki heç zaman Azərbaycanda dini, milli zəmində qarşıdurma olmayıb. Bu sahədə cəmiyyətdə formalaşmış dözümlülük, tolerantlıq və multikultural ənənələri ilə yanaşı, düşünülmüş dövlət siyasəti də çox böyük rol oynayır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dövlət tərəfindən bu sahədə yaradılan bütün zəruri şərait və dəstək dünyaya örnək sayılacaq səviyyədədir".

Bu gün ölkəmizin hər kəs üçün multikultural məkana çevrildiyi təkzibedilməz faktdır. Azərbaycanda yaşayan müxtəlif xalqlar, mədəniyyət və din ardıcılları arasında qarşılıqlı hörmətin, birgəyaşayış ənənəsinin mövcudluğu əksər dünya ölkələri, beynəlxalq təşkilatlar, diplomatlar, din xadimləri tərəfindən də qəbul edilir və müxtəlif tədbirlərdə bir çox dövlətlər üçün örnək göstərilir.

**Müşfiq CƏFƏROV,**
**"Respublika".**

*"Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün".*